DOI: doi.org/10.61226/12.2.2023/20252.101
UOT: 9:327
Sənubər CABBAROVA
Azərbaycan Turizm və Menecment Universiteti,
tarix üzrə fəlsəfə doktoru
gsanubar9@gmail.com
https://orcid.org/0009-0008-4434-387X

AZƏRBAYCAN- İTALİYA MÜNASİBƏTLƏRİ (1993-2003-CÜ İLLƏR)

Xülasə: 1993-2003-cü illər Azərbaycan Respublikasının müstəqilliyini möhkəmləndirdiyi və xarici siyasət kursunu müəyyənləşdirdiyi bir dövr olmaqla yanaşı, Avropa İttifaqı ölkələri, o cümlədən İtaliya ilə müxtəlif sahələrdə fəal əməkdaşlığın başlandığı illər idi. Azərbaycan ilə İtaliya arasında münasibətlərin möhkəmlənməsi 1990-cı illərin ortalarından başlayaraq, xüsusilə 1993–2003-cü illərdə diplomatik, iqtisadi və mədəni sahələrdə əhəmiyyətli irəliləyişlərlə müşahidə olunmuşdur. Tədqiq olunan tarixi dövrdə qarşılıqlı səfərlər və siyasi dialoqlar intensivləşdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci ilin sentyabr ayında İtaliyaya rəsmi səfəri münasibətlərin inkişafında dönüş nöqtəsi oldu. Bu dövrdə enerji, diplomatiya, ticarət və mədəniyyət sahələrində əməkdaşlıq genişlənmiş, qarşılıqlı etimad formalaşmışdı. Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə təməli qoyulan Azərbaycan–İtaliya əlaqələri bu gün də uğurla davam edir və iki dövlət arasında çoxtərəfli əməkdaşlıq getdikcə inkişaf edir və daha da dərinləşir. Məqalədə 1993-2003-cü illərdə Azərbaycan -İtaliya münasibətləri geniş tədqiq olunur.

Açar sözlər: Azərbaycan Respublikası, İtaliya Respublikası, əməkdaşlıq, müqavilə, siyasət.

Санубар ДЖАББАРОВА

АЗЕРБАЙДЖАНО-ИТАЛЬЯНСКИЕ ОТНОШЕНИЯ (1993-2003 ГГ.)

Абстракт: 1993–2003 годы были периодом, когда Азербайджанская Республика укрепляла свою независимость и определяла внешнеполитический курс, а также временем начала активного сотрудничества с странами Европейского Союза, в том числе с Италией, в различных сферах. Укрепление отношений между Азербайджаном и Италией началось с середины 1990-х годов и особенно активно развивалось в 1993–2003 годах, сопровождаясь значительным прогрессом в дипломатической, экономической и культурной сферах. В рассматриваемый исторический период усилились взаимные визиты и политический диалог. Официальный визит общенационального лидера азербайджанского народа Гейдара Алиева в Италию в сентябре 1997 года стал поворотным моментом в развитии двусторонних отношений. В этот период расширилось сотрудничество в сферах энергетики, дипломатии, торговли и культуры, сформировалось взаимное доверие. Отношения между Азербайджаном и Италией, заложенные в период правления общенационального лидера Гейдара Алиева, успешно продолжаются и сегодня, а многоплановое сотрудничество между двумя государствами эффективно развивается и еще больше углубляется. В статье всесторонне исследуются азербайджано-итальянские отношения в 1993–2003 годах.

Ключевые слова: Азербайджанская Республика, Республика Италия, сотрудничество, договор, политика.

Sanubar JABBAROVA

AZERBAIJANI-ITALIAN RELATIONS (1993-2003)

Abstract: The years 1993-2003 were the period when the Republic of Azerbaijan strengthened its independence and determined its foreign policy course, as well as the time of the beginning of active cooperation with the countries of the European Union, including Italy, in various fields. The strengthening of relations between Azerbaijan and Italy began in the mid-1990s and developed especially actively in 1993-2003, accompanied by significant progress in the diplomatic, economic and cultural spheres. The historical period under consideration witnessed a significant intensification of reciprocal visits and political dialogue. The official visit of the national leader of the Azerbaijani people Heydar Aliyev to Italy in September 1997 became a turning point in the development of bilateral relations. During this period, cooperation in the fields of energy, diplomacy, trade and culture expanded, and mutual trust was formed. The relations between Azerbaijan and Italy, established during the reign of the national leader Heydar Aliyev, successfully continue today, and the multifaceted cooperation between the two countries is successfully developing and deepening. The article provides a comprehensive examination of Azerbaijani-Italian relations in 1993–2003.

Key words: Republic of Azerbaijan, Republic of Italy, cooperation, agreement, politics.

Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi, beynəlxalq nüfuzunun artırılması çoxşaxəli və strateji yanaşma tələb edən bir prosesdir. Qlobal siyasət, iqtisadiyyat, texnologiya və mədəniyyət sahələrində artan rəqabət fonunda dövlətlərin nüfuz qazanması təkcə hərbi və iqtisadi gücə deyil, həm də "yumşaq güc", diplomatik çeviklik və beynəlxalq əməkdaşlıq imkanlarına əsaslanır. Dövlətlərin ikitərəfli əməkdaşlığı beynəlxalq münasibətlərin əsas formalarından biridir. Bu əməkdaşlıq ölkələrin qarşılıqlı maraqları əsasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə qurulur və inkişaf etdirilir.

İkitərəfli əməkdaşlıq - iki suveren dövlət arasında qurulan rəsmi münasibətlər sistemidir. Bu əməkdaşlıq siyasi dialoq, iqtisadi ticarət, elmi-texniki mübadilə, mədəni əlaqələr, təhlükəsizlik sahəsində tərəfdaşlıq və digər sahələri əhatə edə bilər. İkitərəfli əməkdaşlıq dövlətlərin xarici siyasətində əsas alətlərdən biridir. Bu əməkdaşlıq vasitəsilə ölkələr yalnız öz milli maraqlarını təmin etmirlər, həm də beynəlxalq sabitliyə və inkişaf prosesinə töhfə verirlər. Müasir dövrdə qlobal çağırışlara qarşı uğurlu mübarizə və davamlı inkişaf üçün çevik və dərinləşdirilmiş ikitərəfli əlaqələr xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə 1993-2003-cü illərə toxunaraq demişdir: "1993-2003-cü illər ərzində Azərbaycan böyük və uğurlu yol keçmişdir. Azərbaycanda dövlət quruculuğu prosesi uğurla aparılmış və gözəl nəticələrə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Qanlı Yanvar faciəsinə hüquqi və siyasi qiymət verilmişdir. Dövlətimizin ideoloji əsasları qoyulmuşdur. Köklü siyasi islahatlar aparılmışdır. İqtisadi sahədə böyük islahatlar aparılmağa başlamışdır. Bazar iqtisadiyyatı əsas prinsip kimi rəhbər götürülmüşdür. Azərbaycan informasiya blokadasını yara və özünü dünyaya təqdim edə bilmişdir. Beynəlxalq təşkilatların üzvü olduq. Sabitlik yarandı. Bütün, qeyri-qanuni

silahlı birləşmələr tərksilah edildi. Azərbaycan hakimiyyətini 1992-ci ildə qanunsuz, saxta yolla zəbt edən antimilli qüvvələr hərəsi bir tərəfə çəkildi. Onlar o vaxtdan artıq siyasi səhnədən tamamilə silinmişdir və bu gün tarixin arxivindədirlər. İnkişaf üçün imkanlar yarandı. O inkişaf ki, bu gün müstəqil Azərbaycanı dünya miqyasında inkişaf edən ölkə kimi təqdim edir" [3].

1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsilə xalqımızın tarixində yeni bir dövrün başlanğıcı qoyuldu. Müstəqilliyin bərpası, Azərbaycan xalqının tarix boyu çəkdiyi əziyyətlərin və mübarizələrin bəhrəsi idi. Çətin mübarizə nəticəsində əldə olunan müstəqillik dövlətimiz tərəfindən bu gün də qorunur və inkişaf etdirilir. Azərbaycanın müstəqilliyi xalqımızın əsrlərlə davam edən azadlıq arzularının reallaşması, milli kimliyin və dövlətçiliyin təntənəsidir. Bu yol çətin, lakin şərəfli bir mübarizə tarixi ilə müşayiət olunmuşdur. Azərbaycanın müstəqil dövlət kimi formalaşması və bu günə qədər öz suverenliyini qoruyub saxlaması, həm tariximizin dərinliklərindən gələn dövlətçilik ənənələrinin, həm də xalqımızın mübariz ruhunun nəticəsidir.

Müstəqilliyin ilk illəri asan keçmədi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Qarabağın işğalı, daxili siyasi böhranlar və iqtisadi çətinliklər müstəqilliyimizin taleyini sual altına alırdı. Lakin ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik, inkişaf və beynəlxalq əlaqələrin qurulması prosesi başlandı. Azərbaycanın neft strategiyası formalaşdı, ölkə iqtisadi və siyasi cəhətdən gücləndi. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycan tarixində mühüm dönüş nöqtəsi olmuşdur. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkədə sabitlik bərqərar olmağa başladı. Dövlət quruculuğu prosesi sürətləndi, hüquqi və siyasi islahatlara start verildi. O, qısa müddət ərzində ölkədə vətəndaş qarşıdurmasının qarşısını aldı, beynəlxalq aləmdə Azərbaycanın mövqeyini gücləndirdi. Azərbaycan Respublikasının müstəqillik dövründə xarici siyasətinin formalaşması və beynəlxalq arenada tanınması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirmiş, balanslaşdırılmış və çoxşaxəli xarici siyasət kursu müəyyən olunmuşdur. Heydər Əliyev diplomatik düşüncəsi, uzaqgörənliyi və siyasi bacarığı ilə Azərbaycanın dünya ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlər qurmasına nail olmuşdur. Ulu öndərin beynəlxalq münasibətlər sahəsində əsas nailiyyətlərindən biri də balanslaşdırılmış xarici siyasət kursunun aparılması idi. O, Azərbaycanı nə yalnız Qərbə, nə də yalnız Şərqə bağladı; əksinə, bütün böyük dövlətlərlə - Rusiya, ABŞ, Türkiyə, Avropa İttifaqı ölkələri, İran, Çin və digərləri ilə qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurdu. Onun bu siyasəti sayəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində müstəqil aktor kimi tanındı. Heydər Əliyevin liderliyi ilə aparılan beynəlxalq siyasət Azərbaycanın həm siyasi, həm də iqtisadi müstəqilliyinin möhkəmlənməsində, dünya ilə inteqrasiyasında və qlobal nüfuzunun artmasında həlledici rol oynadı. Onun qoyduğu xarici siyasət xətti bu gün də Azərbaycan dövlətinin beynəlxalq münasibətlər kursunun təməlini təşkil edir.

Bu gün ayrı-ayrı dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük önəm verilir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətində çoxvektorlu və balanslaşdırılmış münasibətlərin qurulmasına üstünlük vermişdir. Bu kontekstdə Avropa dövlətləri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə Azərbaycan–Avropa münasibətləri qarşılıqlı maraqlara əsaslanaraq dinamik şəkildə inkişaf etməkdədir.

Azərbaycanın xarici siyasət kursunda İtaliya Respublikası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur. İtaliya Azərbaycanla əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi maraq göstərirdi. Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-İtaliya əlaqələri

ötən illər ərzində dinamik inkişaf edib, ölkələrimiz arasında müxtəlif sahələrdə sahələrdə səmərəli əməkdaşlıq formalaşıb.

İki dövlət arasında münasibətlərin əsası İtaliyanın Azərbaycan Respublikasının müstəqilliyini 1 yanvar 1992-ci il tarixində tanıması, 8 may tarixində 1992-ci il isə iki ölkə arasında diplomatik əlaqələr qurulması ilə qoyulub.

İtaliya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqe sərgiləmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində balanslı mövqe nümayiş etdirmişdir. İtaliya, Avropa İttifaqı və BMT kimi beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə müdafiə etmişdir. Eyni zamanda, münaqişənin sülh yolu ilə həllinə çağırmışdır.

Qeyd edək ki, 1992-1993-cü illərdə İtaliya ATƏM-in (indiki ATƏT) Minsk Qrupu çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində danışıqlar prosesinə cəlb olunmuşdur. 1992-ci il Avropada təhlükəsizlik və əməkdaşlıq sahəsində dönüş ili oldu. Soyuq müharibənin başa çatması ilə Avropa siyasi xəritəsi dəyişir, yeni müstəqil dövlətlər meydana çıxırdı. Bu fonda ATƏM (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi) özünün institusional inkişafına doğru mühüm addımlar atdı. Xatırladaq ki, 1992-ci ilin 1 iyununda Romada Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar prosesinin ilkin mərhələsi start götürdü. ABŞ, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən bu görüş iyunun sonlarında açılması nəzərdə tutulan Minsk Konfransına hazırlıq məqsədi daşıyırdı [2].

İtaliyanın sədrliyi ilə Minsk Qrupu 1992-ci ilin dekabrın 12-14-də İsveçin Stokholm şəhərində keçirilən ATƏM Xarici İşlər Nazirləri Şurasının qərarına əsasən, münaqişənin həlli üçün sülh konfransının Minsk şəhərində keçirilməsini planlaşdırırdı. 1993-cü ilin 28 iyulunda ATƏM-in Minsk Konfransının sədri statusunda 9 ölkənin adından İtaliyanın xarici işlər nazirinin müavini Mario Rafaelli verdiyi bəyanatında və BMT Baş katibinə təqdim etdiyi hesabatında bildirirdi: "Güc yolu ilə işğal olunmuş ərazilərdən qoşunların dərhal çıxarılması sülh danışıqlarının irəli aparılması üçün ən mühüm amildir". Mario Raffaelli həmin dövrdə ATƏM-in Minsk Qrupunun sədri kimi münaqişənin sülh yolu ilə nizamlanması üçün vasitəçilik missiyasını yerinə yetirirdi. Bu mövqe eyni zamanda BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələr ilə də üst-üstə düşürdü. Həmin qətnamələrdə də Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Lakin münaqişənin gərginliyi, xüsusilə 1992–1993-cü illərdə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı bu təşəbbüslərin reallaşmasına imkan vermədi. Nəticə etibarilə, 1992–1993-cü illərdə İtaliya sədrliyi ilə aparılan diplomatik cəhdlər münaqişənin həllinə real təsir edə bilmədi. Azərbaycan dövləti öz növbəsində beynəlxalq səviyyədə İtaliyanın suveren hüquqlarının qorunmasında daim fəal iştirak etmiş və obyektiv mövqeyini bildirmişdir.

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq çərçivəsində 10 noyabr 1995-ci il tarixdə Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 4 iyun 1996-cı ildə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şah Dəniz" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 2 iyun 1998-ci ildə isə Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanmışdır. 2002-ci ilin sentyabr ayında İtaliyanın ENİ şirkəti Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinə dair Sazişi imzalayaraq 5 % payla layihə üzrə sponsorlar qrupunun üzvünə çevrilmişdir [7]. Məlumat üçün bildirək ki, Agip – dünyanın 70 ölkəsində biznesi olan Eni S.p.A. adlı beynəlxalq şirkətə məxsus italyan brendidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidi ilə Azərbaycanda yenidən hakimiyyətə gələndən sonra İtaliya ilə əməkdaşlıq istiqamətinə ayrıca diqqət yetirdi. Həmin dövrdə İtaliya ilə əlaqələr strateji xarakter almağa başladı. Xüsusilə vurğulamaq lazımdır ki, ulu öndər Azərbaycanın müstəqilliyini və suverenliyini təmin etmək üçün Qərb dövlətləri ilə diplomatik əlaqələrin qurulmasını prioritet hesab edirdi. Bu istiqamətdə ümumilli liderin strateji addımlarından biri də İtaliya Respublikasına səfəri olmuşdur. 25-27 sentyabr 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri dövlətlər arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım omuşdur. Səfər nəticəsində iki dövlət arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanmışdır. Bu sənədlər aşağıdakılardır:

1. Azərbaycan Respublikası və İtaliya Respublikası arasında münasibətlərin prinsipləri haqqında Birgə Bəyannamə;
2. Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq haqqında Birgə Bəyannamə;
3. Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında mədəniyyət, elm və texnologiya sahəsində əməkdaşlıq Sazişinə dair Birgə Bəyannamə
4. Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında 1997-1998-ci illərdə ikitərəfli texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu;
5. Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;
6. Azərbaycan Respublikası və İtaliya Respublikası arasında Hava xidmətlərinə dair Saziş;
7. Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İnvestisiyaların qorunması və həvəsləndirilməsi haqqında Müqavilə **[8].**

Ümumilli lider Heydər Əliyevin bu səfər çərçivəsində keçirdiyi rəsmi görüşlər və imzalanan sənədlər Azərbaycan və İtaliya arasında çoxşaxəli əməkdaşlığın təməlini qoydu, ikitərəfli əlaqələr isə yüksələn xətlə daha da sürətlə inkişaf etməyə başladı.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, ümumilli lider Heydər Əliyevin İtaliyaya səfəri zaman İtaliyanın prezidenti Oskar Luici Skalfaro və digər rəsmiləri birmənalı şəkildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduqlarını dəfələrlə vurğulamışdır. 1993-2003-cü illər ərzində İtaliya rəsmi bəyanatlarında münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu bəyan etmiş, həmçinin münaqişə tərəflərini dialoqa çağırmış, BMT və ATƏT platformalarında sülh təşəbbüslərini dəstəkləmişdir.

Qeyd edək ki, 1997-ci ilin martında İtaliya Cənubi Qafqaz ölkələri arasında ilk dəfə Azərbaycanda öz səfirliyini təsis edib, 2003-cü ilin dekabrında isə Azərbaycanın İtaliyada səfirliyi fəaliyyətə başlayıb. Bu, İtaliya ilə əlaqələrin institusional səviyyədə daha fəal mərhələyə keçməsinə səbəb oldu.

1997-ci ildən sonrakı dövrdə İtaliyanın rəsmi şəxsləri Azərbaycana, Azərbaycanın rəsmi şəxsləri isə İtaliyaya çoxsaylı səfərlər etmiş, iki ölkə arasında ikitərəfli əlaqələrin tənzimlənməsi, əməkdaşlığın inkişaf etdirilməsinə dair sənədlər imzalanmışdır.

1997-ci il sentyabrın 25-də Roma şəhərində Azərbaycan Respublikası və İtaliya Respublikası arasında 1997-1998-ci illərdə ikitərəfli texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumun əsas məqsədləri aşağıdakılardır:

1. **Texniki bilik mübadiləsi** – Azərbaycanda müxtəlif sahələrdə (məsələn, sənaye və kənd təsərrüfatı texnologiyaları, idarəetmə, təhsil) İtaliya təcrübəsinin tətbiqi;

2. **Təlim və seminarlar** – Azərbaycan mütəxəssislərinin İtaliyadakı ixtisaslaşma kursları və seminarlar və əksinə;
3. **Layihə dəstəyi** – İnfrastruktur, enerji, sənaye və kənd təsərrüfatı layihələri üçün yardım, eləcə də texniki konsultasiya xidməti;
4. **Elm və texnologiya sahəsində əməkdaşlıq** – universitetlər və elmi-tədqiqat institutları arasında birgə proqramların həyata keçirilməsi [5].

Memorandum iki ölkə arasında texniki və elmi sahələrdə dayanıqlı əməkdaşlığa zəmin hazırlayan ilkin və strateji sənəd idi. Bu anlaşma, təkcə birgə layihələr deyil, həm də uzun müddətli təhsil, elm və texnologiya əlaqələrinin qurulmasına xidmət etdi. Memorandum sonrakı illərdə imzalanan mədəni, iqtisadi və enerji sahəsindəki anlaşmalar üçün platforma rolunu oynadı.

1999-cu il aprelin 14-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikasının Azərbaycandakı Səfirliyi arasında "İtaliya-Azərbaycan Qarşılıqlı Balans Fondunun yaradılması və işlədilməsi haqqında" Niyyətlər Memorandumu imzalanmışdır. Memoranduma əsasən Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikasının Azərbaycandakı Səfirliyi humanitar yardım layihələrinin rasional şəkildə inkişaf etdirilməsi və istifadəsi üçün bir sıra razılığa gəlmişlər[5]. Sənədin ikinci maddəsinə əsasən tərəflər razılaşma əsasında təyin edilmiş Azərbaycanda kənd təsərrüfatının inkişaf və modernləşdirilməsi layihələrini və ya qaçqın və məcburi köçkünlər üçün nəzərdə tutulan başqa humanitar layihələri maliyyələşdirmək məqsədi ilə Qarşılıqlı Balans Fondu yaradır, Qarşılıqlı Balans Fondu Azərbaycan Respublikasının daxili bazarında humanitar yardımın satışından əldə edilən vəsait hesabına yaradılır və «Humanitar yardım üzrə İtaliya-Azərbaycan Qarşılıqlı Balans Fondu» adlanaraq əlavə «A»-nın əsasında idarə olunur, Azərbaycan Respublikası Hökuməti Səfirliyin nümayəndələrinin tələbi əsasında, onları mühasibat, büdcə və Qarşılıqlı Balans Fondunun idarə olunmasına aid digər sənədlərlə tanış edir [5]. Sənədin beşinci maddəsinə əsasən isə Azərbaycan Respublikası qüvvədə olan qanunvericiliyə uyğun olaraq, İtaliyadan göndərilən humanitar yardımı ölkəyə daxil olarkən bütün növ vergi və rüsumlardan azad edir. İtaliya tərəfi heç bir növ vergi və rüsum ödəmir [5].

13-14 iyun 2000-ci il tarixdə Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edən İtaliyanın nümayəndə heyəti İtaliyanın Xarici İşlər Nazirinin müavini U.Ranyerinin başçılığı ilə Azərbaycanda səfərdə olmuşdur. Avropa Şurası Katibliyi və Nazirlər Komitəsinin məsul şəxslərindən təşkil edilmiş nümayəndə heyətinin Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin sədri, Xarici İşlər Naziri və Konstitusiya Məhkəməsinin sədri ilə keçirdiyi görüşlərdə Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi istiqamətində atılmış son addımlara dair müzakirələr aparılmışdır [1].

2002-ci il iyunun 1-də Bakı şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında mədəniyyət, elm və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Sazişin ikinci maddəsinə əsasən tərəflər təhsil sahəsində kursların təşkili yolu ilə bir-birinin dilinin və ədəbiyyatının öyrənilməsinə, universitetlərdə və digər ali və ümumtəhsil məktəblərində kafedraların açılması və mühazirələrin təşkilinə; hər iki ölkədə təhsillə bağlı şəxslər, institutlar və təşkilatlar arasında birbaşa əməkdaşlığa, əlaqələrin qurulmasına və mübadiləyə; tədris metodları, vəsaitləri, materialları və proqramları ilə əlaqədar, xüsusən də mütəxəssislərin mübadiləsi yolu ilə əməkdaşlığa və mübadilələrə yardım etməyi üzərinə götürdülər [4]. Sənədin 4-cü maddəsinə əsasən isə tərəflər mədəniyyət və incəsənət, musiqi, rəqs, təsviri incəsənət, teatr və kino sahələrindəki dövlət institutları və həmçinin müəssisə və assosiasiyalar arasında birgə layihələrin gerçəkləşdirilməsi, mədəniyyət xadimlərinin mübadiləsi və bir-birinin tamaşalarında, festivallarında, kitab yarmarkalarında, simpoziumlarında,

kinofestivallarında və digər vacib tədbirlərində iştirak vasitəsi ilə əməkdaşlığı inkişaf etdirəcəyini, eyni zamanda mütəmadi olaraq özlərinin müvafiq bədii və mədəni işlərini əks etdirən yüksək səviyyəli sərgilər mübadiləsi edəcəklər. Maliyyə məsələləri də daxil olmaqla tələbnamə qaydaları diplomatik kanallarla müəyyənləşdiriləcəyini bəyan etmişlər. Sazişin 11-ci maddəsinə əsasən isə tərəflər mədəniyyət, elm, universitet və məktəb sahəsində Avropa qaydalarına əsasən irəli sürülən təşəbbüsləri təşviq etməyi və dəstəkləməyi və onların həyata keçirilməsi üçün əməkdaşlıq etməyi öhdələrinə götürürlər [4].

2002-ci il iyunun 25-də Roma şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında kiçik və orta müəssisələr sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Bu, iki ölkə arasında kiçik və orta biznesin inkişafı və əməkdaşlığının genişləndirilməsi məqsədilə bağlanmış sənəddir. Memorandumların əsas məqsədləri aşağıdakılardır:

- Kiçik və orta müəssisələrin inkişafı üçün əlverişli şəraitin yaradılması;
- İki ölkənin kiçik və orta müəssisələri arasında təcrübə və məlumat mübadiləsi;
- Birgə layihələrin, sərmayələrin təşviqi və həyata keçirilməsi;
- Texnologiya transferi və innovasiyaların təşviqi;
- Ticarət və investisiya əlaqələrinin gücləndirilməsi;
- Kiçik və orta müəssisələrin qarşılıqlı bazarlara çıxışının asanlaşdırılması.

Bu sənəd, Azərbaycan və İtaliya arasında iqtisadi əməkdaşlığın dərinləşməsində, xüsusilə də kiçik və orta müəssisələrin fəaliyyətinin dəstəklənməsi və inkişafında mühüm addım hesab olunur.

2002-ci il dekabrın 9-da Bakı şəhərində "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İtaliya Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi arasında əməkdaşlıq barədə Niyyət Protokolu" qəbul edilmişdir. Bu, iki ölkənin müvafiq nazirlikləri arasında əmək, sosial siyasət və əhalinin sosial müdafiəsi sahəsində qarşılıqlı əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə imzalanan sənəddir. Protokola əsasən tərəflər, sosial-əmək münasibətləri sahəsində əldə edilmiş təcrübəyə aid informasiya mübadiləsini həyata keçirmək üçün zəruri səylər nümayiş etdirəcəklər, İtaliya tərəfi Azərbaycanın milli qanunvericiliyini "Yenidən baxılmış Avropa Sosial Xartiyası"nın tələblərinə uyğun təkmilləşdirmək məqsədilə sosial-əmək münasibətləri sahəsində Avropa normalarının öyrənilməsinə kömək göstərəcəkdir. Tərəflər miqrasiya məsələlərinin idarə olunması sahəsində ikitərəfli əməkdaşlığın inkişafı üçün zəruri addımları atacaqlar, İtaliya tərəfinin əhalinin özünüməşğulluğu sahəsində əldə etdiyi təcrübəyə əsaslanaraq, eyni zamanda Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin inkişafı üçün birgə layihələrin hazırlanması məqsədilə əməkdaşlıq edəcəklər, həmçinin müasir konsepsiyalara və beynəlxalq təcrübəyə əsaslanan, hər iki dövlətdə pensiya və sosial yardım sistemlərində islahatların aparılması ilə bağlı əməkdaşlığı həyata keçirəcəklər. Tərəflər əlillərin tibbi və peşə reabilitasiyası sahəsində Milli təcrübələrin mübadiləsi üçün əməkdaşlıq edəcəklər. Görüşlər, məsləhətləşmələr və danışıqlar prosesində sosial-əmək problemlərinin həlli sahəsində qarşılıqlı əməkdaşlığın digər formalarına da baxılacaqdır [6].

Beləliklə, 1993–2003-cü illər ərzində Azərbaycan-İtaliya münasibətləri əsasən diplomatik, iqtisadi və enerji əməkdaşlığı sahələrində inkişaf etmişdir. Tədqiq olunan dövr ərzində Azərbaycanı İtaliyanın müxtəlif dövlət qurumlarının nümayəndələri ziyarət etmişlər. Tərəflər arasında aparılan danışıqlar və müzakirələr nəticəsində bir çox sahələrdə tərəfdaşlıq məqsədilə razılaşmalar əldə olunmuşdur.

Bu gün də Azərbaycan-İtaliya münasibətləri bütün sahələr üzrə yüksələn xətlə inkişaf edir. İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib.

Nəticə etibarilə, dahi şəxsiyyət Heydər Əliyev dövründə Azərbaycan–İtaliya münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu əlaqələr təkcə iki ölkənin maraqlarına xidmət etmədi, həm də Cənubi Qafqazda sabitlik və əməkdaşlığın güclənməsinə töhfə verdi. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan-İtaliya strateji tərəfdaşlığı bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ədəbiyyat

1. Avropa Şurası və Azərbaycan: [Elektron resurs]/ URL: https://files.preslib.az/projects/conflict/gl2.pdf
2. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT): [Elektron resurs]/ URL: http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/atet.pdf
3. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə İlham Əliyevin nitqi: [Elektron resurs]/- Bakı, 10 may, 2013. URL: https://president.az/az/articles/view/8098
4. Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında mədəniyyət, elm və texnologiya sahəsində əməkdaşlıq haqqında SAZİŞ https: [Elektron resurs]/ - Bakı, 1 iyun, 2022. URL: frameworks.e-qanun.az/1/f_1608.html
5. Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikasının Azərbaycandakı səfirliyi arasında İtaliya-Azərbaycan Qarşılıqlı Balans Fondunun yaradılması və işlədilməsi haqqında NİYYƏTLƏR MEMORANDUMU: [Elektron resurs]/ - Bakı, 14 aprel, 1999. URL: https://e-qanun.az/framework/734
6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İtaliya Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi arasında əməkdaşlıq barədə NİYYƏT PROTOKOLU: [Elektron resurs]/ - Bakı, 9 dekabr, 2002. URL: https://e-qanun.az/framework/2145
7. Azərbaycan-İtaliya əməkdaşlığının tarixi kökləri var//Səs.- 2020, 19 dekabr.- s.8.
8. Kərimli A., Heydər Əliyevin müdrik xarici siyasəti//Respublika. – 2023, 21 aprel. - № 83. - s. 7

Məqalənin redaksiyaya daxilolma tarixi: 24.06.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.06.2025
Məqalənin çapa qəbul olunma tarixi: 08.07.2025